UOT: 330.322.21, 338.242, 338.43

Murad Əli oğlu HACIYEV
doktorant, Aqrar Tədqiqatlar Mərkəzi
murad.haciyev.01@list.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.090

KƏND TƏSƏRRÜFATINA ÖZƏL İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN STİMULLAŞDIRILMASI MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycan Respublikasının kənd təsərrüfatında əsas kapitala investisiya qoyuluşlarının stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi məsələlərinin araşdırılması və bu istiqamətdə zəruri dəyərləndirmələr aparılmasıdır.

Tədqiqatın metodologiyası – araşdırılan məsələyə sistemli yanaşma, dinamika sıralarının təhlili, stuktur təhlilləri, müqayisəli dəyərləndirmə.

Tədqiqatın tətbiqi əhəmiyyəti – kənd təsərrüfatına özəl investisiya resurslarının cəlbinin stimullaşdırılması mexanizmlərinin daha da təkmilləşdirilməsi ilə bağlı məsələlərə baxılmasında nəzərə alınması imkanları.

Tədqiqatın nəticələri – müasir şəraitdə Azərbaycan Respublikasında aqrar sahədə özəl investisiyaların dinamikası və strukturunda baş verən dəyişikliklər açıqlanmış və bu sahəyə investisiya cəlbinin stimullaşdırılmanın gücləndirilməsi imkanları dəyərləndirilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Azərbaycan iqtisadiyyatının aqrar sektorunda özəl investisiya qoyuluşlarının sistemli təhlili aparılmış və bu istiqamətdə müasir inkişaf tələbləri nəzərə alınmaqla stimullaşdırma mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı mülahizələr irəli sürülmüşdür.

Açar sözlər: kənd təsərrüfatı, investisiya resursları, özəl investisiyalar, investisiyaların stimullaşdırılması, stimullaşdırma mexanizminin təkmilləşdirilməsi.

Giriş

Müasir şəraitdə kənd təsərrüfatı istehsalının dinamik inkişafının təmin olunması bu sahəyə investisiya qoyuluşlarının davamlı artırılması ilə bağlıdır. İqtisadiyyatın aqrar sektorunda əsas kapitala zəruri həcmlərdə investisiyaların yönlədilməsi əkinçilik və heyvandarlıq məhsulları istehsalının genişləndirilməsi ilə yanaşı, dayanıqlı inkişaf tələblərinin ödənilməsi məqsədilə yaşıl keçidin sürətləndirlməsinin, qlobal iqlim dəyişikliklərinə zərərəli təsirlərin yumşaldırmasının zəruri şərtinə çevrilir.

Kənd təsərrüfatının investisiya resurslarına olan tələbinin ödənilməsi dövlət və özəl sektora aid yatırılmların reallaşdırılması vasitəsilə həyata keçirilir. İnkişaf edən ölkələrdə, o cümlədən post-transformasiya iqtisadiyyatlarında aqrar sahənin inkişafı sahəsində problemlərin ardıcıl həlli baxımından özəl investisiyaların rolunun artırılması xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə Azərbaycan Respublikasının kənd təsərrüfatında əsaslı irəliləyişlər olmuşdur. Sahəyə ümumi investisiya qoyuluşlarında özəl sektorun payı sürətlə yüksəlmişdir. Bununla yanaşı, hələlik qeyri-dövlət subyektləri tərəfindən aqrar sektora yönəldilən investisiya resurslarının mütləq və nisbi həcminin bu sahədə inkişafın müasir tələblərinə uyğunlaşdırılmasına ehtiyac vardır. Bu problemin həlli isə kənd təsərrüfatında əsas kapitala yönəldilən özəl investisiyaların stimullaşdırılmasnı təmin edən effektiv mexanizmlərin formalaşdırılması ilə bağlıdır.

Müasir şəraitdə kənd təsərrüfatına özəl investisiyaların cəlb edilməsinin stimullaşdırılmasında əsas meyllər

İnvestisiyaların stimullaşdırılması aqrar sahənin tənzimlənməsi sisteminin tərkib hissəsi olmaqla, həmin sistemin formalaşması prinsiplərinə uyğun qurulur. Bununla əlaqədar, investisiyaların stimullaşdırılması mexanizmləri iqtisadiyyatların inkişaf səviyyəsindən asılı olaraq fərqli

cəhətlərə malik olur.

İnkişaf etmiş iqtisadiyyatlarda aqrar sahəyə investisiya qoyuluşlarının stimullaşdırılması uzun təkamül yolu keçməklə çoxistiqamətli və çoxhədəfli xarakter almışdır. Müasir şəraitdə inkişaf etmiş ölkələrin aqrar sahəyə investisiya qoyuluşları üzrə siyasətləri istehsalın resurs təminatının genişləndirilməsi və keyfiyyət baxımından yaxşılaşdırılmasına, habelə investisiyalar vasitəsilə struktur dəyişikliklərinin stimullaşdırılması, dəyər zənciri üzrə inkişafın dəstəklənməsi, dayanıqlı inkişaf, qlobal iqlim dəyişikliklərinin təsirlərinin yumşaldıması ilə bağlı məsələlərin həllinin sürətləndirilməsinə yönəldilir.

Qeyd edilən iqtisadiyyatlarda investisiya qoyuluşlarının stimullaşdırılması ilə aqrar istehsalın bütün sahələri əhatə olunur. Eyni zamanda, stimullaşdırma üstün olaraq aqrar sahəyə investisiya axınının artırılması vasitəsilə istehsalın genişləndirilməsi və rəqabətqabiliyyətliliyin yüksəldilməsi məqsədilə istehsal resurslarının (maşın, avadanlıq, məhsuldar kənd təsərrüfatı heyvanları, torpaq sahələri) əldə olunmasının dəstəklənməsinə yönəldilir.

Bununla yanaşı, investisiyaların stimullaşdırılması müvafiq məqsədli dövlət proqramları çərçivəsində müəyyən edilən inkişaf prioritetlərinin reallaşdırılmasında vasitə kimi istifadə edilir. Sözügedən prioritetlərə aqrar sahədə müəyyən sosial qrupların iqtisadi fəaliyyətinin genişləndirilməsi, konkret istehsal sahələrinin inkişafı, çətin şəraitli regionlarda aqrar fəaliyyətin həyata keçirilməsinin, kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi aid edilir.

İnkişaf etmiş iqtisadiyyatlarda kənd təsərrüfatının dövlət tənzimlənməsi tədbirlərinin sahəyə investisiya qoyuluşlarının artırılması stimullarının zəiflədilməsinə təsirlərinin aradan qaldırılması və ya azaldılması həmin tədbirlərin bazar təhriflərini məhdudlaşdıran mexanizmlərinin yaradılması, rəqabətli bazarların formalaşdırılması yolu ilə reallaşdırılır. [4]

İnkişaf etmiş iqtisadiyyatlarda aqrar sahənin dayanıqlı inkişaf tələblərinə uyğun inkişafının dəstəklənməsində investisiyaların vasitə kimi istifadə edilməsi genişlənir. Bu istiqamətdə son dövrlərdə Avropa İttifaqına daxil olan ölkələrdə fermerlər tərəfindən kimyəvi maddələrin istifadəsinin azaldılmasına yönəldilən təsərrüfatdaxili investisiya yatırımlarına daha güclü kömək göstərilməsi və ya bunun kənd yerlərinin inkişafı proqramları (RDP) çərçivəsində investisiyalara köməyin şərti kimi qəbul edilməsi praktikaları tətbiq olunur. [6]

ABŞ-də torpağın sıfır işlənilməsi (“no-till”) sisteminin fermerlər tərəfindən tətbiqi ilə bağlı investisiya xərclərinin maliyyələşdirilməsinə kömək tədbirləri həyata keçirilir. [8]

Litvada torpağın sıfır işlənilməsi sisteminin tətbiqinə investisiyaların maliyyələşdirilməsinə kömək bununla bağlı yaradılmış xüsusi fond vasitəsilə həyata keçirilir. [7]

İnkişaf etmiş ölklərdə qlobal iqlim dəyişikliklərinin mənfi təsirlərinin yumşaldılmasında aqrar sahəyə investisiya qoyuluşlarından vasitə kimi istifadə olunur. Belə ki, Avropa İttifaqında fermer təsərrüfatları tərəfindən karbon emissiyasının azaldılması məqsədilə enerji istehlakının azaldılmasına yönəldilən təsərrüfatdaxili investisiya yatırımlarına daha güclü kömək göstərilməsi üzrə tədbirlər tətbiq olunur, o cümlədən dövlət təminatı ilə güzəştli investisiya kreditləri verilir. [6]

Göstərilən istiqamətdə ABŞ-da fermerlərin bərpa olunan enerjinin istehsalı sistemlərinin, həmçinin belə enerjidən istifadənin səmərəliliyini yüksəldən sistemlərin alınmasının güzəştli kreditləşdirilməsi proqramı reallaşdırılır.

Qeyd edilənlərlə yanaşı, ABŞ-də iqlimə uyğun kənd təsərrüfatına keçidin kapitallaşması üçün xüsusi mexanizmlər yaradılır, o cümlədən vəsaitin maliyyə dəyər zəncirindən kənd təsərrüfatı dəyər zəncirinə ötürülməsi məqsədilə müvafiqyönümlü layihələrin reallaşdırılması üçün “yaşıl səhmlər” buraxılışı və yerləşdirilməsi təmin olunur. [8]

Suvarma əkinçiliyinin üstünlük təşkil etdiyi Avropa ölkələrində irriqasiya sistemlərinin modernləşdirilməsinə investisiya qoyuluşları aqrar sahədə investisiya siyasətinin prioritet istiqamətləri kimi müəyyən edilir. [6]

İnkişaf etməkdə olan iqtisadiyyatlarda kənd təsərrüfatı üzrə investisiyaların stimullaşdırılması inkişaf etmiş ölkələrlə müqayisədə müəyyən məhduduiyyətlərə malikdir. Həmin iqtisadiyyatlarda ümumi iqtisadi imkanlarla bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsinə yönəldilən


maliyyə resursu bazası zəifdir. Müxtəlif istiqamətlər üzrə özəl investisiyaların cəlb edilməsinə stimulların yaradılması məqsədilə dövlət tərəfindən ayrılan maliyyə vəsaitlərinin mütləq və nisbi kəmiyyətləri kifayət qədər yüksək olmur ki, bu da stimullaşdırma tədbirlərinin əhatə dairəsinin və miqyaslarının məhdudlaşdırılması ilə nəticələnir.

İnkişaf etməkdə olan ölkələrdə istehsal infrastrukturunun inkişaf etdirilməsi ilə özəl sektorun əsaslı vəsait qoyuluşuna stimul yaradılması və fermerlərin texnika və tenologiyalarla təminatının dəstəklənməsi tədbirlərinin tətbiqi üstünlük təşkil edir.

Azərbaycanın kənd təsərrüfatına özəl investisiyaların dinamikası

Azərbaycanın kənd təsərrüfatına özəl sektor tərəfindən əsas kapitala investisiya qoyuluşları iqtisadiyyatın bu sektoruna ümumi investisiya qoyuluşlarında önəmli yer tutur. 2019-2023-cü illərin orta illik göstəricilərinə uyğun olaraq, qeyri –dövlət investisiyalarının kənd təsərrüfatına investisiya qoyuluşlarında payı 48.8 % təşkil etmişdir. Bu göstərici 2005-2009-cu illərin müvafiq göstəricisi ilə müqayisədə 45.8 faiz bəndi yüksəkdir.

Ölkəmizdə həyata keçirilmiş əsaslı islahatlardan sonra kənd təsərrüfatının inkişafına prioritetlik verilmişdir. Sahəyə geniş dövlət köməyi sistemi qurulmuşdur. Bu, öz növbəsində kənd təsərrüfatı istehsalı sferasına özəl investisiya axınını gücləndirmişdir. (Diaqram 1)



Diaqram 1. 2005-2023-cü illərdə Azərbaycanın kənd təsərrüfatında əsas kapitala yönəldilən özəl (qeyri-dövlət) investisiya qoyuluşları (mln manat)

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Ölkə iqtisadiyyatının aqrar sektorunda əsas kapitala investisiya qoyuluşlarının artım templəri institutsional islahatların dərinləşdirilməsi ilə əlaqədar 2014-2015-ci illərdən başlayaraq yüksəlmişdir. Sürətli artım pandemiyaya qədər davam etmişdir. Həmin dövrdə özəl investisiya qoyuluşlarının artması ilk növbədə kənd təsərrüfatının müasir texnika ilə təchizatında əhəmiyyətli irəliləyişlərə yol açmışdır. Fermerlərə texnika alınması üçün əlverişli şəraitin yaradılması sayəsində 2015-2019-cu illərdə aqrar sahədə traktorların sayı 2.6 dəfə, onların mühərriklərinin məcmu gücü isə 3.1 dəfə artmışdır. Sözügedən dövrdə həmçinin taxılyığan kombaynların sayı 5.4 dəfə yüksəlmişdir. [3]

Kənd təsərrüfatı texnikasının digər növləri ilə təchizat səviyyəsində də sürətli artımlar olmuşdur. Bununla əlaqədar, yeni şəraitdə güc və iş maşınları arasında səmərəli nisbətlərin yaradılmasına imkan açılmışdır ki, bu da öz növbəsində aqrotexniki tədbirlərin optimal vaxtlarda yerinə yetirilməsi baxımından əlverişli hesab edilir.

Pandemiya dövründə digər sahələrdə olduğu kimi kənd təsərrüfatında əsas kapitala investisiya

qoyuluşları, o cümlədən özəl sektor tərəfindən qoyuluşların həcmində enmələr müşahidə edilmişdir. Eyni zamanda, investisiya qoyuluşlarının həcmi 2010-cu illərin əvvəlləri ilə müqaisədə bir neçə dəfə yüksək olmuşdur. Bununla belə, 1-ci cədvəlin məlumatlarından da aydın olduğu kimi, özəl sektor tərəfindən yatırımlar kənd təsərrüfatının texnika ilə təminat səviyyəsi göstəricilərinin yaxşılaşdırılmasında artım templəri əhəmiyyətli dərəcədə zəifləmişdir. Taxılyığan kombaynlarla təminat göstəricisində isə müəyyən qədər enmə müşahidə edilmişdir.

Cədvəl 1

Kənd təsərrüfatının texnika ilə təminat göstəriciləri

Göstəricilər	2015	2019	2024	2024-cü ildə 2015-ci ilə nisbətdə dəyişmə, dəfə (artım +, azalma -)	2024-cü ildə 2019-cu ilə nisbətdə dəyişmə, dəfə (artım +, azalma -)
1000 ha əkin sahəsinə düşən traktorların sayı, ədəd	7.7	20.4	25	+3.2	+1.2
100 taxıl əkini sahəsinə düşən kombayn sayı, ədəd	0.7	3.7	3.3	+4.3	- 0.9
100 traktora düşən					
Kotan	5	13	15	+3.6	+1.1
Kultivator	0.4	3	4	+10.0	+1.3
Taxıl-toxumsəpən	2	5	11	+5.5	+2.2
Otbiçən	1	2	4	+ 2.0	+2.0

Mənbə: *AR DSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Kənd təsərrüfatına özəl investisiya qoyuluşlarının dinamikasında diqqəti cəlb edən digər məqam bu göstəricinin kəmiyyətində illər üzrə enmənin son dövrdə davamlı hal almasıdır. Belə vəziyyət, ilk növbədə ölkənin kənd təsərrüfatı istehsalında stabil artım templərinin təmin olunması baxılmından əlverişli deyildir. Bununla əlaqədar, aqrar sahəyə özəl sektor tərəfindən investisiyaların cəlb edilməsinin daha güclü stimullaşdırılmasına ehtiyac yaranır.


Kənd təsərrüfatına özəl investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətləri

Dövlət müstəqilliyi şəraitində Azərbaycanın kənd təsərrüfatında özəl investisiyaların stimullaşdırılmasının əsas formasını müxtəlif növ istehsal vasitələri ilə təminatın yaxşılaşdırılmasına kömək tədbirləri təşkil etmişdir. İlknin olaraq kənd təsərrüfatı istehsalıçılarına texnikanın lizinq yolu ilə satışı təşkil olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2004-cü il tarixli 468 nömrəli Sərəncamı ilə yaradılmış səhmlərinin 100%-i dövlətə məxsus “Agrolizinq” ASC tərəfindən kənd təsərrüfatı istehsalçılarına güzəştli şərtlərlə müxtəlif növ texnika və avadanlıqlar verilməyə başlanılmışdır. 2005-ci ildən başlayaraq texnikanın 10% ilkin ödənişlə 1 ildən sonra qalıq dəyəri 9 il müddətinə ödənilirdi. Texnikanın nisbətən ücüz qiymətə satışını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli 11 və 12 nömrəli qərarlarına əsasən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində istifadə edilən və lizinq müqaviləsinin obyekti olan əksər maşın və texniki vasitələr idxal edilərkən idxal gömrük rüsumundan və əlavə dəyər vergisindən azad edilmişdir. Sonrakı dövrdə güzəştin miqyası genişləndirilmiş və satış şərtləri yaxşılaşdırılmışdır. Bundan əlavə, 2014-cü ildən texnikanın ilkin dəyərinin minimum 20%-i ödənildikdə büdcə vəsaiti hesabına ilkin dəyərin 40%-i həcmində güzəşt tətbiq edilir. İlkin ödəniş və güzəşt hissəsi çıxıldıqdan sonra qalan hissəsinin ödənilməsi üçün istehsalçılara 5 il müddətinə faizsiz kredit verilir. Maliyyələşmə məbləğinə tətbiq edilən faiz dövlət büdcəsi hesabına ödənilir.

Qeyd etmək lazımdır ki, güzəştli şərtlərlə satış kənd təsərrüfatı yexnikası ilə yanaşı damazlıq

heyvanlara da aid edilmişdir. İdxal edilən damazlıq heyvanın gömrük dəyərinin, ölkə daxilində yetişdirilmiş damazlıq heyvanların isə qiymətləndirmə nəticəsində müəyyən edilən satış dəyərinin minimum 25%-i ilkin ödənilməsi halında dəyərin 60 faizi həcmində güzəşt tətbiq edilir. Bu güzəştin məbləği dövlət büdcəsindən ayrılan vəsait hesabına ödənilir. Damazlıq heyvanın dəyərinin yerdə qalan hissəsinin ödənilməsi üçün istehsalçıya 3 il müddətinə faizsiz kredit verilir.

Beləliklə, kənd təsərrüfatının istehsal vasitələri ilə təminatının dəstəklənməsinin nəzərdən keçirdiyimiz istiqaməti birbaşa güzəşt və kredit və ya lizinq vəsaiti güzəştinin kombinasiyası vasitəsilə reallaşdırılır. Bu, sahədə istehsalçıların güzəştlərdən istifadə miqyasının sürətlə genişlənməsi ilə nəticələnmişdir. (diaqram 3) Güzəştlərin məbləği 2009-2014-cü illərdə dəfə, 2015-2024-cü illərdə 5.5 dəfə artmışdır.



Diaqram 2. Texnika, avadanlıq və damazlıq heyvan satışına dövlət tərəfindən güzəştlərin illər üzrə məbləği, min manat

Mənbə: Kənd Təsərrüfatı Nazirliyinin məlumatıarı əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bununla yanaşı, hazırda fermerlərin istehsal vasitələri ilə təminatının dəstəklənməsi müvafiq məqsəd üçün güzəştli kreditlərin verilməsi, habelə investisiya yönümlü mikrokreditlər üçün kredit təminatlarının verilməsi yolu ilə də həyata keçirirlir. Hər iki istiqamət üzrə kömək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası ilə müəyyən olunan mexanizmlərlə reallaşır. Kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün güzəştli kreditlərin məbləği və güzəşt müddəti verilən kreditin məbləğindən asılı olaraq diferensiallaşdırılır. Kredit təminatları ancaq mikrokreditlər (məbləği 15 min manatadək olan) üçün tətbiq edilir. [1]

Eyni zamanda islahatların gedişində kənd təsərrüfatı üçün istehsal vasitələri bazarının liberallaşdırılması üzrə əsaslı tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2018-ci il tarixli 413№-li Fərmanına uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştlər kənd təsərrüfatı istehsal vasitələrinin (kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının, damazlıq heyvanların) ticarəti ilə məşğul olan bütün hüquqi və fiziki şəxslərin həyata keçirdikləri satışlara şamil edilmişdir.

Kənd təsərrüfatında əsas kapitala investisiyaların stimullaşdırılması vasitəsilə struktur problemlərinin həlli də dəstəklənir. Dövlət müstəqilliyi şəraitində Azərbaycanda həmin istiqamət üzrə tədbirlər ilkin mərhələdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə layihələrin özəl sahibkarlığın

inkişafı üzrə dövlət fondunun vəsaiti əsasında güzəştli kreditlərlə maliyyələşdirilməsini əhatə etmişdir. Sonrakı mərhələdə kənd təsərrüfatında iri təsərrüfat formalarının yaradılması tədbirləri üstünlük təşkil etmişdir. Sözügedən layihələr ərzaq təhlükəsizliyi ilə yanaşı ixracyönümlü məhsulların istehsalının təşkilinə də yönəlmişlər. Son dövrlərdə aqroparkların yaradılması üzrə layihələrin güzəştli şərtlərlə maliyyələşdirilməsi təmin olunur. 2020-2023-cü illərdə Sahibkarlığın İnkişafı Fondundan kənd təsərrüfatına və bu sahənin məhsullarının emalı üzrə layihələrə 347 mln. manat vəsait ayrılmışdır. [2]

Prioritet istiqamətlər üzrə investisiya cəlbinin gücləndirilməsinin digər yönümünü ölkənin kənd təsərrüfatı sahəsində malik olduğu müqayisəli üstünlüyün reallaşdırılmasının stimullaşdırılması məqsədilə inrensiv və superintensiv bağların salınmasına birdəfəlik ödənişlərin (qrantların) verilməsi olmuşdur. Belə ödənişlər bağların salınmasının konkret dövrləri üzrə və bağların növlərinə görə fərqli müəyyən edilir. Həmin subsidiyanın alınması üçün bağların "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq sığorta edilməsi tələbi müəyyən olunmuşdur.

İstehsal vasitələrinin alınmasında birbaşa güzəştlərin (subsidiyaların) tətbiqinin Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının maliyyə imkanlarının məhdudluğu və bank-kredit sisteminin zəifliyi şəraitində tenika ilə təchizat məsələlərinin həlli baxımından mühüm əhəmiyyəti olmuşdur. Bununla yanaşı, heyvanların cins tərkibinin yaxşılaşdırılması istiqamətində də müəyyən irəliləyişlər olmuşdur. Eyni zamanda, nəzərə almaq lazımdır ki, aqrar sahədə investisiyaların stimullaşdırılmasında göstərilən alətdən istifadə müəyyən çatışmazlıqlara da malikdir. OECD əməkdaşlarının da qeyd edtiyi kimi giriş resursları üçün subsidiyalar fermerlərin resurslarla təchizatının sadə və siyasi cəhətdən cəlbedici üsulu olmaqla kredit almadan da resurslara əlyetərliyi təmin etməyə və fermerlərə yeni resurslar barədə biliklər əldə etməyə imkan yaradır. Hesab edilir ki, resurs subsidiyaları qısamüddətli dövrdə infrastrukturun kredit və resurs bazarlarının kifayət qədər inkişaf etməməsindən doğan catışmazlıqları aradan qaldırmağa imkan verir, lakin uzunmüddətli dövrdə istehsal vasitələri bazarlarının inkişafına və resursların səmərəli bölgüsünə mane olur. [4]

Həmin cəhətlər nəzərə alınmaqla inkişaf etmiş ölkələrdə istehsal vasitələrinin alınmasına birbaşa güzəşt digər alətlərlə (bir qayda olaraq güzəştli kreditlərlə) əvəz edilir.

Lakin, nəzərə almaq lazımdır ki, Azərbaycanda bir tərəfdən fermerlərin maliyyə imkanları nisbətən zəifdir, digər tərəfdən hələlik bank-kredit sisteminin inkişaf səviyyəsi kənd təsərrüfatı istehsalçılarının genişmiqyaslı güzəştli kreditləşdirilməsinin effektiv təşkili tələblərinə uyğun deyil. Bununla əlaqədar, qarşıdakı dövrlərdə də istehsal vasitələrinin alınmasında birbaşa güzəştlərin tətbiqi zərurilyinə ehtiyac saxlanılacaqdır. Bununla belə, ölkəmizdə aqrar sahənin inkişafından irəli gələn yeni tələblər nəzərə alınmaqla, sözügedən alətin tətbiqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı məsələlərin həllinə də diqqət yerirlməsi məqsədəuyğundur.

Həmin istiqamətdə digər ölkələrin müvafiq təcrübələrinin təhlili maraq kəsb edir. Bununla bağlı, Qazaxıstanın təcrübəsi diqqəti cəlb edir. Qazaxıstanda kənd təsərrüfatı texnikasının güzəştli satışında dəyərin 25%-i səviyyəsində müəyyən edilən ilkin ödəniş güzəşt olaraq dövlət tərəfindən ödənilir. Texnikanın dəyərinin yerdə qalan hissəsinin ödənilməsi üçün isə fermerə güzəştli kredit verilir. [9] Belə yanaşma fermeri öz vəsaiti hesabına ilkin ödənişdən azad etməklə texnikanın istehsalçıların daha geniş kütləsi üçün əlyetərli edilməsinə müsbət təsir göstərir. Digər tərəfdən birbaşa güzəştə yönəldilən dövlət vəsaitinin nisbətən aşağı səviyyəsini təmin etməklə həmin istiqamətdə azad edilən vəsaitin hesabına ilkin ödənişlərin verildiyi texnikanın sayının çoxalmasına və faiz subsidiyaları ilə təmin olunan kreditlərin həcmini artırmağa imkanlar açır.

Qeyd edilənlər nəzərə alınmaqla, sözügedən təcrübənin ölkəmizdə tətbiqi imkanlarına baxıla bilər.

Nəticə

Kənd təsərrüfatına özəl investisiya qoyuluşlarının davamlı surətdə artırılması bu sahədə effektiv stimullaşdırma mexanizmlərinin formalaşdırılması ilə bağlıdır. Azərbaycan iqtisadiyyatının aqrar sektorunda müvafiq yönümdə həyata keçirilən tədbirlər istehsalçıların müxtəlif növ texnika

ilə təminatının yüksəldilməsində, heyvanların cins tərkibinin yaxşılaşdırılmasında mühüm rol oynamışdır. Son dövrdə sözügedən istiqamətdə irəliləyişlər ölkənin kənd təsərrüfatında müqaqyisəli üstünlüyə malik olan sahələrin inkişafının sürətlənməsinə təkan vermişdir.

Eyni zamanda, hazırkı şəraitdə özəl investisiyaların stimullaşdırılma mexanizmlərinin daha da təkmilləşdirliməsinə ehtiyac yaranır. Bununla bağlı, ilk növbədə, birbaşa güzəştlərə yönəldilən vəsaitlərin nisbi həcminin optimallaşdırılması, stimullaşdırma sistemində güzəştli kreditlərin rolunun yüksəldilməsi əsas istiqamətlər kimi qəbul oluna bilər. Qarşıdakı dövrdə, həmçinin dayanıqlı inkişafa, o cümlədən torpaq və su resurslarının qorunması və səmərəli istifadəsi məqsədlərinə, habelə iqlim dəyişikliklərinə adaptasiya və mənfi təsirlərin yumşaldılmasına yönəlik investisiyaların stimullaşdırılmasına prioritetlik verilməsi zəruri olacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası https://e-qanun.az/framework/41022
2. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu. İllik hesabatlar. https://edf.gov.az/az/content/182
3. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq https://www.stat.gov.az/source/agriculture/
4. Agricultural investments and capital stock. Global and regional trends (2012–2022)https://www.fao.org/statistics/highlights-archive/highlights-detail/agricultural-investments-and-capital-stock.-global-and-regional-trends-(2012-2022)/en)
5. OECD Policy Framework for Investment in Agriculture https://www.oecd-ilibrary.org/docserver/9789264212725-en.pdf?expires=1727168944&id=id&accname=guest&checksum=2279CD0D07F0C49559EEF642
6. Outcomes of farm investment in Central and Eastern Europe: The role of financial public support and investment scaleLand Use Policy Volume 108, September 2021, 105655https://www.sciencedirect.com/science/article/pii/S0264837721003781
7. The Positive Effect of Public Investment on Potential Growthhttps://www.oecd-ilibrary.org/economics/the-positive-effect-of-public-investment-on-potential-growth_15e400d4-en
8. Transformative Investment in Climate-Smart Agriculture Unlocking the potential of our soils to help the U.S. achieve a net-zero economy February 2021 https://usfarmersandranchers.org/wp-content/uploads/2021/02/USFRA-Transformative-Investment-Report.pdf).
9. Государственная поддержка https://www.gov.kz/memleket/entities/shymkent-auyal-zharuazhalyk/ activities/1871

Мурад Али оглы Гаджиев
Докторант, Аграрный Исследовательский Центр
murad.haciyev.01@list.ru

Совершенствование механизма стимулирования частных инвестиций в сельское хозяйство

Резюме

Цель исследования – исследование вопросов совершенствования механизма стимулирования инвестиций в основной капитал в сельском хозяйстве Азербайджанской Республики и проведение необходимых оцениование в этом направлении.

Методология исследования – системный подход к изучаемому вопросу, анализ динамических рядов, структурный анализ, сравнительная оценка.

Прикладное значение исследования – возможности учета при рассмотрении вопросов, связанных с дальнейшим совершенствованием механизмов стимулирования частных

инвестиционных ресурсов в сельском хозяйстве.

Результаты исследования – раскрыты изменения в динамике и структуре частных инвестиций в аграрный сектор Азербайджанской Республики в современных условиях и оценены возможности усиления стимулирования привлечения инвестиций в этой сфере.

Оригинальность и научная новизна исследования – проведен системный анализ частных инвестиций в аграрный сектор экономики Азербайджана и выдвинуты соображения относительно совершенствования механизмов стимулирования в этом направлении, учитывая с учетом требований современного развития.

Ключевые слова: сельское хозяйство, инвестиционные ресурсы, частные инвестиции, стимулирование инвестиций, совершенствование механизма стимулирования.

Murad Ali Hajiyev
PhD student, Agrarian Research Center
murad.haciyev.01@list.ru

Improvement of the mechanism for stimulating private investment in agriculture

Summary

The purpose of the study- is to investigate the issues of improving the mechanism for stimulating fixed capital investments in agriculture of the Republic of Azerbaijan and to conduct necessary assessments in this direction

Research methodology – systematic approach to the issue under study, analysis of dynamic series, structural analysis, comparative assessment

Applied significance of the study – opportunities to take into account when considering issues related to further improving the mechanisms for stimulating private investment resources in agriculture

Research results – changes in the dynamics and structure of private investment in the agrarian sector in the Republic of Azerbaijan under modern conditions are disclosed and opportunities for strengthening the stimulation of investment attraction in this area evaluated

Originality and scientific novelty of the research – A systematic analysis of private investments in the agrarian sector of the Azerbaijani economy was conducted and considerations were put forward regarding the improvement of incentive mechanisms in this direction, taking into account the requirements of modern development.

Key words: agriculture, investment resources, private investments, investment stimulation, improvement of the incentive mechanism.